

## Testdən necə keçəcəksiniz?

Həkiminiz boğazınıza, burnunuza, və tüpürcəyinizə pambıq çubuq daxil etməklə sizdən örnək alacaqdır. Daha sonra, alınan nümunələr virusun sizdə mövcud olub-olmadığını müəyyənləşdirmək üçün laboratoriyaya təhlilə göndəriləcəkdir. Nəticələrinizi əldə etmək 24-48 saat vaxt tələb edir. Nəticələriniz üçün sizə zəng vurulacaqdır. Xahiş edirik nəticələrinizi açıqlayan bu zəngə diqqətlə qulaq asıb deyilənləri yerinə yetirin.


Azerbaijan Society
OF MAINE
*Celebrating cultural heritage*

P.O. Box 8777
Portland ME 04104
AzeriSocietyofMaine@gmail.com
**www.azemaine.com**




# COVID-19 üçün testdən keçmək:

## *Nə gözlənilir*


Azerbaijan Society
OF MAINE

# Testdən sonra aşağida qeyd olunan üç situasiyani gözləməlisiniz:

## 1 Sizdə coronavirus əlamətləri olduğu halda test nəticələriniz neqativ çıxımışdırsa:

- Bu sizdən örnək alındığı müddətdə sizin virusa yoluxmamış olduğunuz anlamına gəlir.
- Bununla bərabər, bəzi insanlarda virusun olmasına baxmayaraq, bu testin mənfi çıxması da mümkündür.
- Bu, test naticələriniz mənfi olsa da koronavirusa yoluxmuş ola bilərsiniz deməkdir.
- Əlamətlərin başlandığı andan etibarən ən azı 10 gün müddətində (qızdırmanızı düşürdəcək dərmanlar istifadə etmədən 3 gün qızdımanız olmayana və tənəffüs əlamətləriniz yaxşılaşana qədər) evdə qalmağınız tövsiyyə olunur.
- Özünüzü daha da pis hiss etsəniz (məsələn, nəfəsalmada çətinlik olarsa) həkiminizlə əlaqə saxlayın. Əgər tibbi məsləhətə ehtiyacını düşünürsünüzsə, əvvəlcə klinikaya zəng edin. Telefonda həkiminizlə əlaqə saxlamadan klinikaya getməyin.



Evdə Qal
Təcrid Ol



Maska taxın və ya
Üz örtüyü




Sosial Məsafəni tətbiq edin

## 2 Koronavirusa yoluxmuş biri ilə yaxın təmasda olmusunuz və test nəticələriniz neqativ çıxmışdırsa:

- Bu, sizdən örnəklər alındığı müddət ərzində virusa yoluxmamış olduğunuzu göstərir
- Virusu olan biri ilə sıx təmasda olduğunuz halda test nəticələrinizin mənfi olmasına baxmayaraq hələ də virusa yoluxma və digər insanlara ötürmə riski yüksəkdir.
- **Pozitiv koronavirus xəstəsi ilə son dəfə 6 feet (1.5m) məsafədə olduğunuz tarixdən etibarən ümumilikdə 14 gün işə getməməli, evdə qalmalısınız.** İş yeriniz üçün arayış tələb olunursa bizə bildirin.
- Birlikdə yaşadığınız hər kəsdən 6 feet (1.5m) məsafə saxlayın
- Əllərinizi tez-tez sabun və su ilə yuyun. Əgər su və sabun yoxdursa, 60% spirt (alkaqol) tərkibli əl üçün dezinfeksiya vasitəsindən istifadə edin.
- Men ştatı Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzi (Maine CDC) növbəti 14 gün ərzində ortaya çıxa biləcək əlamətlər barədə suallar vermək üçün sizə zəng edəcəkdir. Bu zəngə cavab vermək çox vacibdir.
- Yaxından təmasda olduğunuz insanlar haqqında CDC-yə məlumat verməyiniz vacibdir ki, onların da sağlam və təhlükəsiz olmasına yardım edə bilsinlər..
- Xəstələnərsinizsə, həkiminizə müraciət edin. Həkiminizlə telefonda danışmadan ofisinə getməyin.
- Evdə başqalarının yanında olduğunuzda və həkim kabinetinə getdiyinizdə üz örtüyündən istifadə edin.

Maine CDC Coronavirus Information:

www.maine.gov/dhhs/mecdc/infectious-disease/epi/airborne/coronavirus.shtml

## 3 Koronavirus testiniz pozitiv çıxmışdırsa:

**A. Yüngül və ya heç bir simptom olmadıqda: (2-də göstərildiyi kimi edin)**

- Sizdə olan yüngül əlamətlər evdə müalicə olunur..
- Koronavirusu müalicə etmək üçün antibiotikə ehtiyacınız yoxdur..
- Xəstə olduğunuz müddətdə ailə üzvlərinizin təhlükəsizliyini və sağlamlığını qorumaq vacibdir.
- Virusu ailənizə yoluxdurmamaq üçün birlikdə yaşadığınız hər kəslə 6 feet (1.5m) məsafə saxlayın.
- Evdə başqalarının yanında olduğunuzda və həkim kabinetinə getdiyinizdə üz örtüyündən istifadə edin..
- Mümkündürsə ailə üzvlərinizdən ayrı, başqa otaqda qalın və onlardan ayrı bir vanna otağından istifadə edin.
- Yemək üçün ayrı qalmalı və otağınızda yeməlisiniz.
- Bir vanna otağını digər ailə üzvləri ilə bölüşürsünüzsə, hər istifadədən sonra otağı təmizləməli və dezinfeksiya etməlisiniz.
- Əllərinizi tez-tez sabun və su ilə ən az 20 saniyə müddətində yuyun. Əgər su və sabun yoxdursa, 60% spirt (alkaqol ) tərkibli əl üçün dezinfeksiya vasitəsindən istifadə edin.
- Evinizdə tez-tez toxunulan səthləri tez-tez təmizləyin.
- Buna masalar, qapı düyməlariç işıq açarlarıç tutacaqlar, stollar, tualetlər, lavabolar və elektronika daxildir.
- Tibbi müayinəyə getməyiniz lazım olmadıqca evinizi tərk etməyin.
- Tibb bacısı yaxında vəziyyətinizlə maraqlanmaq üçün sizə zəng edəcək və özünüzü yaxşı hiss edənə qədər zəng etməyə davam edəcəkdir.
- Maine CDC də Sizə zəng edəcəkdir. Bu zəngə cavab vermək çox vacibdir..
- Virusu başqa insanlara yoluxdurma riskiniz tamamən aradan qalxana qədər evdə qalmalısınız.
- CDC sizi nə zaman təhlükəsiz olduğunuz və evinizi təhlükəsiz halda tərk edə biləcəyiniz haqda məlumatlandıracaqdır. Evdəqalma prosesi ən az 10 gün çəkəcəkdir.
- Yaxından təmasda olduğunuz insanlar haqqında CDC-yə məlumat verməyiniz vacibdir ki, onların da sağlam və təhlükəsiz olmasına yardım edə bilsinlər.
- Özünüzü daha da pis hiss etsəniz (məsələn, nəfəsalmada çətinlik olarsa), həkiminizə müraciət edin. Tibbi məsləhətə ehtiyacınız olduğunu düşünürsünüzsə, əvvəlcə zəng edin. Həkiminizlə telefonda danışmadan ofisinə getməyin.

**B. Ağır simptomları olan insanlar xəstəxanada saxlanılır və müalicə olunur. CDC və həkiminiz xəstəxanaya yerləşdirilib yerləşdirilməyəcəyinizi təyin edə bilər.**